**«Yunayted Кredit Bank» ASC-də**
**«Açıq valyuta mövqeyi limitlərinin müəyyən edilməsi və tənzimlənməsi qaydası haqqında» daxili**

# Təlimat

## 1. Ümumi müddəalar

**1.1.** Bu Qaydalar “Azərbaycan Respublikasının Milli Bankı haqqında”, “ Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqlnda ” və “Valyuta tənzimi haqqında qanunlara, Milli Bankın normativ aktlarına, «Yunayted Kredit Bank» ASC-nin Nizamnaməsinə müvafiq olaraq hazırlanmış və «Yunayted Kredit Bank» ASC tərəfindən aparılan xarici valyuta əməliyyatları üzrə məzənnə risklərinin tənzimlənməsinə xidmət edir.

1.2. Azərbaycan Respublikasının qanunvericilik aktları ilə təfsir edilmiş anlayışlardan əlavə, bu Qaydaların mətnində istifadə olunmuş digər termnlər aşağıdakı kimi anlaşılmalıdır:

1.2.1. *Valyuta mövqeyi* – müvəkkil bankların bu və ya digər valyutada tələbləri (aktivləri) və öhdəlikləridir (passivləridir).

1.2.2. *Açıq valyuta mövqeyi* – müvəkkil bankların ayrı-ayrı xarici valyutalarda tələblərinin və öhdəliklərinin (o cümlədən, hesablaşmaları tamamlanmamış əməliyyatlar üzrə balansdankənar tələblərin və öhdəliklərin) məbləğləri arasında, mübadilə məzənnəsinin əlverişsiz dəyişməsi şəraitində itkilər riski yaradan fərqdir.

1.2.3 *Qısa açıq valyuta mövqeyi* – hər hansı xarici valyutada passivlərin və balansdankənar öhdəliklərin məbləğinin aktivlərin və balansdankənar tələlərin məbləğindən çox olduğu açıq valyuta mövqeyidir.

1.2.4. *Uzun açıq valyuta mövqeyi* - hər hansı xarici valyutada aktivlərin və balansdankənar tələblərin məbləğinin passivləri və balandankənar öhdəliklərin məbləğindən çox olduğu açıq valyuta mövqeyidir.

1.2.5. *Məcmu açıq valyuta mövqeyi* - bütün uzun açıq valyuta mövqelərinin manat ekvivalentində məbləğlərinin cəmi ilə bütün qısa açıq valyuta mövqelərinin manat ekvivalentində məbləğlərinin cəmi arasında mütləq kəmiyyətcə böyük olan göstəricidir. Məcmu açıq valyuta mövqeyi sərbəst dönərli valyutalar və qapalı valyutalar üzrə ayrılıqda hesablanır. Bu zaman açıq valyuta mövqeləri “plyus”, qısa açıq valyuta mövqeləri isə “minus” işarəsi ilə işarələnir.

1.2.6. *Qapalı valyuta mövqeyi* - hər hansı xarici valyutada aktivlərin və balansdankənar tələblərinin məbləğinin passivlərin və balansdankənar öhdəliklərin məbləğinə bərabər olduğu valyuta mövqeyidir.

1.2.7. *Açıq valyuta mövqeyi limiti* -açıq valyuta mövqeyinin manat ekvivalentinin bankın kapitalına nisbətinə Azərbaycan Respublikası Milli Bankı tərəfindən təyin edilən kəmiyyət məhdudiyyətidir.

1.2.8. *Bankın kapitalı* - Milli Bankın müəyyən etdiyi qaydada hesablanan məcmu kapitaldır.

1.2.9. *Sərbəst dönərli valyutalar* – bu Qaydalara 2 N-li əlavədə göstərilmiş valyutalardır.

1.2.10. *Qapalı valyutalar* - bu Qaydalara 2 N-li əlavədə göstərilmiş valyutalar istisna olmaqla yerdə qalan bütün xarici valyutalardır.

1.2.11. *Günün yekun məzənnəsi* - açıq valyuta mövqeyinin hesablandığı tarixdə iş gününün yekununa Milli Bankın elan etmiş olduğu rəsmi məzənnə və ya rəsmi məzənnə üzrə hesablanmış çarpaz (kross) məzənnədir.

1.2.12. *Struktur valyuta mövqeyi* – inflyasiyanın və valyuta risklərinin bankın kapitalına təsirini minimallaşdırmaq məqsədilə qəbul edilmiş uzunmüddətli valyuta mövqeləridir. Bu cür mövqeyə bankın xaricdə törəmə müəssisələr təsis etməsi, səhmlərini xarici valyutada emissiya edərək yerləşdirməsi və möhtəkirlik xarakterinə malik olmayan digər əməliyyatlar üzrə açılmış mövqeləri aid edilə bilər.

1.3. Xarici valyutada aktivlərə (tələblərə) nağd pul və müxbir hesablar, Milli Bankdakı məcburi ehtiyatlar, verilmiş (o cümlədən vaxtı keçmiş) kreditlər və avanslr, qiymətli kağızlar, investisiyalar, hesablanmış faizlər və dividendlər, rezident və qeyri-rezidentlərə xarici valyutada digər tələlər daxildir.

1.4. Xarici valyutada öhdəliklərə müştərilərin, o cümlədən bankın maliyyə vəsaitləri, alınmış kreditlər və avanslar, buraxılmış qiymətli kağızlar üzrə öhdəliklər, hesablanmış faiz borcları, rezident və qeyri-rezidentlər qarşısında digər öhdəliklər daxildir.

1.5. Balansdankənar hesablardakı xarici valyutaya, valyuta forvardları, bank qarantiyaları, akkreditivlər və s. üzrə xarici valyutada gələcək daxilolmalar və ödəmələr daxildir.

1.6. Açıq valyuta mövqeyi bank tərəfindən icmal balans məlumatlarına əsasən günün yekun məzənnəsi üzrə gündəlik hesablanır.

## II. Açıq valyuta mövqeyi limitlərinin təyin edilməsi

2.1. «Yunayted Kredit Bank» ASC-də valyuta-məzənnə risklərinin məhdudlaşdırılması məqsədilə aşağıda göstərilən mövqelər üzrə açıq valyuta mövqeyi limitlərini müəyyən edir:

Açıq Valyuta mövqeyinin aparılmasında Bank mövcud Azərbaycan qanunvericiliyi aşağdakıları rəhbər tutur:

- Azərbaycan Milli Bankının normativ aktları;
- Səhmdarların ümumi yığıncağı və diğər rəhbər orqanlarının qərarları.

«Yunayted Kredit Bank» ASC öz adından və ya müştərilərin tapşırığı ilə xarici valyutanın alqı-satqısı ilə məşğul ola bilər.

Açıq valyuta mövqeyinin ölçüsü xarici valyutada olan aktivlərin və xarici valyutada olan passivlərin fərqi kimi müəyyən edilir.

«Yunayted Kredit Bank» ASC daxili bazarda manatla aparılan xarici valyuta ilə alqı-satqı əməliyyatları üçün limit müəyyənləşdirilir.

İş gününün sonuna Açıq valyuta mövqeyinin dərəcəsi məcmu kapitalının ümumi valyuta ekvivalentinin 20%-dən artıq olmamalıdır.

Əgər əməliyyat günü ərzində müəyyən edilmiş açıq valyuta mövqeyi limitinin keçməsi baş verərsə, bank öz hesabına müəyyən edilmiş valyuta mövqeyinin keçdiyi faiz dərəcəsi limitində xarici valyutanın alqı-satqı balanslaşdırma əməliyyatları apara bilər.

## III. Bankın açıq valyuta mövqeyinə dair hesabatı

3.1. «Yunayted Kredit Bank» ASC 1 N-li əlavədə göstərilmiş formada açıq valyuta mövqeyinə dair hesabatlar tərtib edib Milli Banka təqdim etməlidir.

3.2. Açıq valyuta mövqeyinə dair günlər üzrə tərtib olunmuş həftəlik hesabatlar hesabat həftəsindən sonrakı *ilk iş günü* Milli Banka təqdim edir.

## IV. Açıq valyuta mövqeyi limitlərinin və hesabatların təqdim olıunması qaydalarının pozulmasına görə bankın məsuliyyəti

Açıq valyuta mövqeyinin pozulmasının hər gününə görə banka tətbiq edilən cərimələrin məbləği aşağıdakı formula üzrə hesablanır:

$$S = \frac{K * əL * 2 * R}{360}$$

burada

S – açıq balyuta mövqeyi liminin pozulmasına görə cərimə məbləği;

K – bankın kapitalının manatla məbləğidir;

əL – bankın açıq valyuta mövqeyinin müəyyən olunmuş limitdən artıq hissəsidir (mütləq ədəddir);

R – mərkəzləşdirilmiş kredit resurslarına görə faiz dərəcəsidir.

Bu zaman cərimələrin məbləği qanunvericiliklə müəyyən olunmuş həddi aşmamalıdır.

## Açiq valyuta mövqeyinə dair

## H E S A B A T

**(“___” ___________ 20   -ci il)**

<table>
<tr><td colspan="14">Bankın adı ________________________ Məsul şəxs: _____________________________ Telefon: ___________________________</td></tr>
<tr><td rowspan="3">Valyuta</td><td rowspan="3">AMB məzənnəsi</td><td colspan="3">Aktivlər (valyutada)</td><td colspan="3">Passivlər (valyutada)</td><td colspan="2">Manat ekvivalentində</td><td colspan="4">Açıq valyuta mövqeyi (AVM)</td><td rowspan="3">AVM əmsalı %</td></tr>
<tr><td rowspan="2">Balans üzrə</td><td rowspan="2">Balans dan kənar</td><td rowspan="2">Cəmi</td><td rowspan="2">Balans üzrə</td><td rowspan="2">Balans dan kənar</td><td rowspan="2">Cəmi</td><td rowspan="2">Cəmi aktivlər</td><td rowspan="2">Cəmi passivlər</td><td colspan="2">Uzun</td><td colspan="2">Qısa</td></tr>
<tr><td>Valyuta</td><td>AZM</td><td>Valyuta</td><td>AZM</td></tr>
<tr><td>USD</td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td>EURO</td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td>GBR</td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td>JPY</td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td>RUR</td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td colspan="8" rowspan="2">CƏMİ</td><td colspan="2">SDV-lər üzrə</td><td>Man.</td><td></td><td>Man.</td><td></td><td>-</td></tr>
<tr><td colspan="2">Digər valyutalar</td><td>Man.</td><td></td><td>Man.</td><td></td><td>-</td></tr>
<tr><td colspan="8">Hesabat tarixinə bankın kapitalı ________________________ manat təşkil edir</td><td colspan="2">SDV üzrə məcmu AVM</td><td colspan="2"></td><td colspan="2"></td><td></td></tr>
<tr><td colspan="8">Qeyd: (Struktur valyuta mövqeyi barədə məlumat)</td><td colspan="2">Qapalı valyuta üzrə məcmu AVM</td><td colspan="2"></td><td colspan="2"></td><td></td></tr>
</table>